**"AMERİKA İSTEHSALI" kitabı haqqındakı fikirlər:**

Mükəmməl biznes qurmaq arzusunda olan hər kəs bu kitabı oxumalıdır. Sem Volton müştərini və işçini anlama meyarlarını təyin etdi. O, uğurlu bir sahibkar və çox yaxşı lider olmaqla bərabər, həm də nəzakətli, əliaçıq və alicənab bir insan idi. Biz onun üçün darıxacağıq.

*H.Ross Perot*

Kitab cənab Volton, onun ailəsi, "Walmart" tərəfdaşları və təqaüdçülərinin danışdıqları səmimi və gülməli əhvalatlarla doludur.

*"Atlanta Constitution" qəzeti*

Söhbət üslubu ilə qələmə alınmış səmimi bir kitabdır, eyni zamanda yazılanlar əsl Sem Voltonu oxucu ilə tanış edir.

*"Green Bay Press-Gazette" qəzeti*

Bu kitab var-dövlətin dəyişdirə bilmədiyi dahi bir biznesmenin portretidir.

*"Los Angeles Times Book Review"*

Kitabın bəsit və sərbəst üslubu Voltonun özünəməxsus və inadkar xarakterini tam mənası ilə əks etdirir. ...kitabı oxuduqca rastlaşacağınız lətifəyə bənzər hekayələrin arasında “Walmart” işçilərinin Semin təşviq layihələrinin onların həyatlarını necə dəyişdirməsi ilə bağlı dedikləri ilə də tanış olacaqsınız.

*“The Sun Diego Union-Tribune” qəzeti*

Bu avtobioqrafiya lap Voltonun coşqun xarakteri kimi ruhlandırıcıdır.

*“The Joplin Globe” qəzeti*

Avtobioqrafiyanın səmimi və əyləncəli üslubu oxucuya zövq verir.

*Anniston Star*

Bu cəsarətləndirici hekayə bizim növbəti “Sadəcə Amerikada” dastanımızdır.

*“San Gabriel Valley Daily Tribune” qəzeti*

Sem Volton diskont sənayesində yeni bir dövr başlatdı... O, Arkanzasda bunu necə bacardı?

*“The Flint” jurnalı*

# SEM VOLTON
# Amerika istehsalı

İngilis dilindən tərcümə edən:
Səmra Tahirova

qanun nəşriyyatı

# SAM WALTON

## Made in America

Çoxu elə bilir “Walmart” bir günün içində yaranıb. Təbii ki, belə deyil. İlk mağaza açılan gündən bu yana çox əziyyət çəkilib. Çox yanlışlara yol verilib. Çox təcrübələr qazanılıb. Əksər “bir günə başa gələn” uğurlar kimi sahibinin 20 ilini alıb.

Müəllif öz sahibkarlıq təcrübəsi əsasında “Walmart”ın uğurundan yazır. Onun sirlərini açır. Aşağı qiymətlər təklif edən dəbdəbəsiz mağazaların ABŞ inqilabına ayna tutur.

Beləliklə, bəzən deyilənlərin əksinə gedərək, bəzən ətraf mühitlə hesablaşaraq addım atmağın yollarını göstərir.

**Sam Walton** **MADE IN AMERICA**
**Sem Volton** **AMERİKA İSTEHSALI**
Bakı, Qanun Nəşriyyatı, 2024, 336 səh.

Janr: bioqrafiya/biznes/memuar
Yaş qrupu: 14+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 25.07.2024

Naşir: Şahbaz Xuduoğlu
İngilis dilindən
tərcümə edən: Səmra Tahirova
Redaktorlar: Səmra Tahirova
Dürdanə Ramazanlı
Korrektorlar: Aygün Həsənova
İradə İslamova
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Ramin Əli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-577-01-3

© Qanun Nəşriyyatı, 2024
Copyright © 1992 by the Estate of Samuel Moore Walton.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# MÜNDƏRİCAT


TƏŞƏKKÜRLƏR ........ 9

ÖN SÖZ ........ 12

**1.** PULA DƏYƏR VERMƏYİ ÖYRƏNMƏK ........ 15

**2.** 10 SENTLƏ BİZNESƏ BAŞLAMAQ ........ 26

**3.** YENİDƏN VƏ DAHA GÜCLÜ ........ 52

**4.** AXINA QARŞI ÜZMƏK ........ 70

**5.** AİLƏ BAŞÇISI OLMAQ ........ 93

**6.** KOMANDANI QURMAQ ........ 106

**7.** ŞİRKƏTİN SƏHMLƏRİNİN BİRJAYA YERLƏŞDİRİLMƏSİ ........ 124

**8.** "WALMART" MAĞAZALARINI VƏ "WALMART" ÜSLUBUNU ÖLKƏNİN HƏR YERİNƏ YAYMAQ ........ 145

**9.** TƏRƏFDAŞLIĞIN ƏSASINI QOYMAQ ........ 168

**10.** FASİLƏ VERMƏK ........ 189

**11.** "WALMART" MƏDƏNİYYƏTİNİ YARATMAQ ........ 204

**12.** MÜŞTƏRİNİ BİZNESİN ƏN VACİB ÜNSÜRÜNƏ ÇEVİRMƏK ........ 225

**13.** RƏQİBLƏRLƏ MÜBARİZƏ ........ 245

**14.** ƏHATƏ DAİRƏSİNİ GENİŞLƏNDİRMƏK ........ 266

**15.** SADƏ DÜŞÜNMƏK ........ 278

**16.** MİNNƏT BORCUNU ÖDƏMƏK ........ 301

**17.** BİZNESİ NECƏ UĞURLU İDARƏ ETMƏK OLAR. MƏNİM ÜÇÜN ÖZÜNÜ DOĞRULTMUŞ 10 QAYDA ........ 314

**18.** KEÇMİŞİ SAF-ÇÜRÜK ETMƏK. NƏSİHƏTLƏRİM ........ 320

QEYD ........ 330

HƏMMÜƏLLİFİN QEYDİ ........ 333

# TƏŞƏKKÜRLƏR

Həyat mənə çox comərd davrandı. Belə ki, o məni əvvəlcə hədsiz işgüzarlığıma tab gətirən və  sevgi dolu bir ailə ilə, daha sonra isə lovğalığıma, həmçinin insanı hövsələdən çıxara bilən hərəkətlərimə dözən iş yoldaşları ilə mükafatlandırdı. Mənimlə birlikdə illərlə çiyin-çiyinə çalışaraq hər əziyyətə qatlaşan bu insanlar sayəsində mümkünsüzü mümkünə çevirməyi bacardım.

Beləliklə, ilk öncə bu kitabı Helen Robson Voltona və onun bir az da bu qoca kişinin yardımı ilə böyütdüyü dörd gözəl övlada – Rob, Con, Cim və qızımız Alisə həsr etmək istəyirəm.

Daha sonra şəriklərimə (hər birinizi şəxsən tanımaq istərdim, ancaq sizinlə illərlə danışmışıq, haqqınızda nə düşündüyümü onsuz da bilirsiniz) və "Walmart"ı maraqlı, eyni zamanda özünəməxsus edən 400000 tərəfdaşıma həsr edirəm. Əslində, bu kitab sizin hekayənizdir.

İlk zamanlar sayımız çox az idi: Arkanzas ştatının Nyuport şəhərində birinci mərtəbə müdirimiz Ceki Lankaster, 1951-ci il avqustun 1-də Bentonvildə "Walton's five and Dime"[1] mağazamı açdığım dövrdəki ilk dörd iş yoldaşım İnez Tret, Rubi Törnr, Vanda Vaysmen və Rut Keller. Hərdən düşünürəm ki, mənimlə

[1] (Ya da sadəcə "Dime") Hər şeyin çox ucuz qiymətə satıldığı xırdavat mağazası. Dime indiki valyuta  ilə 10 sentə bərabərdir. (S.T)

birlikdə bu işə cəsarət edən həmin insanlar olmasaydı, nə edərdim? Klarens Leis, Vilard Volker, Çarli Baum, Ron Lavles, Bob Boql, Klaud Harris, Ferold Arend, Çarli Keyt, Al Mayls, Tomas Ceferson, Geri Reynbot kimi insanlar üçünsə özlərinin oturuşmuş həyat tərzlərini və işlərini tərk edərək mənim kimi bir xəyalpərəstin komandasına qoşulmaq böyük risk demək idi. Həmçinin, təbii ki, Bob Tornton, Darvin Smit, Cim Henri, Fil Qrin, Don Vitaker, Rey Tomas, Cim Dismor, Cim Eliot, Con Houks, Ron Mayer, Cek Şiumeykerin əvəzsiz töhfələrini itirə bilmərəm. Eyni zamanda bu yerdə öz dəyərli məsləhətlərini heç vaxt bizdən əsirgəməyən Con Teyti xüsusi vurğulamalıyam. Bütün bu insanlar sayəsində "Walmart" böyük bir şəbəkə oldu.

Sözsüz ki, əgər rəqiblərimiz, ələlxüsus da bu gün hər kəsə yaxşı məlum olan diskont[1] mağazalarını ilk düşünən və əsasını qoyan "Kmart" mağazalar şəbəkəsinin sahibi Herri B.Kaninqham olmasa idi, "Walmart" da olmazdı. Mən belə hesab edirəm ki, onun adı tarixdə bütün zamanların ən qabaqcıl pərakəndə tacirlərinin adları ilə birgə hallanmalıdır.

Yenə də Devid Qlasın öz möhtəşəm komandası ilə şirkətin başında olduğunu bildiyim və ona sonsuz etimad etdiyim üçün düşünürəm ki, şirkətin səhmlərini əlimdə saxlayacağam. Bil Filds, Din Sanders, Coi Hardin kimi şirkətin böyük hissələrini idarə edən istedadlı gənclər haqqında isə çox yüksək fikirdəyəm. Mənə elə gəlir ki, onlar daha çoxuna qadirdirlər və bir gün bunu hər birimizə sübut edəcəklər.

Və əlbəttə ki, bir nömrəli şərikim, qardaşım Ceyms L. "Bud" Volton. Onun da mənim haqqımda danışacaqları var, ancaq narahat olmayın hamısı tərifdən ibarət deyil. Bad üçüncü mağazanı açdığım vaxtdan bəri mənim şərikimdir. O gündən bu günə onun ağıllı məsləhətləri və bələdçiliyi bizi dəfələrlə səhv

[1] Bir şeyin adi qiymətindən ucuz satışını ifadə edir. (S.T)

etməkdən qoruyub. Mən həmişə hövsələsiz insan olmuşam, bəzən insanları tələsdirir və yanlış yönləndirirdim. Bad isə daha təmkinli davranırdı, doğru zamanı və istiqaməti seçə bilirdi. Tezliklə onun hisslərinə və müstəsna mühakimə qabiliyyətinə inanmağı öyrəndim.

Nəhayət, 25 ildir mənimlə birgə addımlamış zəhmətkeş və xeyirxah katibəm Loretta Bosa və üç ildir ki, mənimlə birgə çalışan Beki Eliota minnətdaram. Məncə, onlar cənnəti qazanıblar; bu dünyada çəkdikləri cəfadan sonra buna layiqdirlər.

Samuel Moore Walton,
*Arkanzas ştatının Bentonvil şəhəri*

# ÖN SÖZ

Salam dostlar, mən "Walmart" mağazasının təsisçisi və sədri Sem Volton. Belə güman edirəm ki, bu günə qədər bizim mağazalarımızın birindən ən azı bir dəfə bazarlıq etmiş, yaxud da bizim şirkətimizdə səhmdar[1] olmusunuz. Əgər belədirsə, şimal-qərbi Arkanzasda ilk mağazamı açdığım gündən bu yana (30 il) canla-başla çalışaraq "Walmart" möcüzəsini ərsəyə gətirən tərəfdaşlarımla necə fəxr etdiyimi artıq bilirsiniz. Ora mənim evimdir. Bəzən özüm də inanmaqda çətinlik çəkirəm, balaca bir mağazanı necə oldu ki, dünyanın ən böyük pərakəndə satış edən mağazalar şəbəkəsinə çevirdik. Amma bu bizə heç də asan başa gəlmədi; bu illər ərzində çox çətinliklərlə üzləşdik.

"Walmart"la olan xatirələrimizin nə qədər dəyərli olduğunu bildiyimdən istəyirəm ki, bunları həmişə "Walmart"a sadiq olmuş insanlarla bölüşüm. Əslində, əgər hər hansısa bankiri, ya da Voll Strit[2] maliyyəçisini nə vaxtsa çox böyük bir şirkət olacağımıza inandırmağa çalışdığımız və bizə dəstək olmaqlarını istədiyimiz vaxtları nəzərə almasaq, özümüzü tərifləmək heç vaxt adətimiz olmayıb. İnsanlar məndən soruşanda ki, "Walmart" bunu necə bacardı, mən cavab verib-verməməkdə qərarsız qalırdım və

[1] Təşkilat və şirkətdə paya və səhmlərə sahib olan fərddir. (S.T)

[2] Nyu-York Fond Birjasının danışıq dilində adıdır, geniş istifadə ümumiyyətlə ABŞ-də istiqrazlarla ticarət əməliyyatlarının aparılması mənası kəsb etməyə başlamışdır. (S.T)